

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 213 (23.124)

7 noyabr 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Bayrağımız qürur mənbəyimizdir" mövzusunda tədbir keçirilib

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Gənclər Birliyinin təşkil etdiyi tədbiri giriş sözü ilə partiyanın Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev açıb. Bildirilib ki, Azərbaycanın Dövlət Bayrağı 72 ildən sonra – 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilib. Eyni zamanda Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılıb. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Dövlət Bayrağı haqqında" Qanun qəbul edərək üçrəngli bayrağa Azərbaycan Respublikasının Dövlət Bayrağı statusu verib. Həmin il oktyabrın 18-də isə Konstitusiya Aktı ilə Azərbaycan Respublikasının dövlət rəmzləri, o cümlədən Dövlət Bayrağı qəbul edilib.

Diskussiya şəraitində keçirilən tədbirdə rayon İcra Hakimiyyəti Aparatının məsul işçisi Nuran Əzizov, təşkilatın Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova, gənc partiya üzvü Amin Əliyev və digərləri çıxış edərək diqqətə çatdırıblar ki, respublika Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də "Dövlət Bayrağı Meydanının yaradılması barədə", 2009-cu il noyabrın 17-də isə "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncamlar imzalayıb. Dövlət Bayrağı Meydanının açılışı və Dövlət Bayrağının təntənəli şəkildə qaldırılması 2010-cu il sentyabrın 1-də olub.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il avqustun 22-də imzaladığı Sərəncam böyük tarixi əhəmiyyətə malikdir. Həmin il noyabrın 17-də Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanının və Muzeyinin istifadəyə verilməsi dövlət atributlarının təbliği istiqamətində həyata keçirilən tədbirlərin davamıdır.

Muxtar respublika rəhbərinin "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Tədbirdə məktəblilər dövlətə, dövlətçiliyə, bayrağa həsr olunmuş şeirləri bədii qiraət ediblər.

**Elman MƏMMƏDOV**

## Muxtar respublikanın xarici ticarət əlaqələri uğurla inkişaf edir

***İqtisadiyyatın şaxələndirilməsi və dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə də müsbət təsir göstərib. Bu baxımdan 2018-ci ilin ötən dövrünün nəticələri də diqqəti cəlb edir. Həmin dövrdə muxtar respublikada 344 milyon 334 min 800 Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınıb. Bunun da 306 milyon 639 min 400 ABŞ dollarını ixrac, 37 milyon 695 min 400 ABŞ dollarını isə idxal təşkil edib. Xarici ticarət üzrə 268 milyon 944 min ABŞ dolları həcmində müsbət saldo yaranıb. Bu gün doğma diyarımızda rəqabətqabiliyyətli, alıcı zövqünü oxşayan məhsullar istehsal edilir. Hazırda Naxçıvanda 350 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.***




Muxtar respublikanın iqtisadi inkişafında ilk mərhələ keyfiyyətli məhsul istehsal etməklə əhalinin tələbatını ödəməkdən ibarət idisə, bu gün həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olmaq prioritet vəzifə kimi qarşıya qoyulub. Bu məqsədlə cari ilin ötən dövrü ərzində Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya, İraq, İran, Gürcüstan, Küveyt, Çin və Qırğızıstan kimi ölkələrə muxtar respublikadan müxtəlif məhsullar ixrac edilib.

İstehsal olunan ixracyönümlü ərzaq məhsullarının keyfiyyəti də yüksəkdir. Müasir dünyada təbii məhsullara verilən üstünlük belə məhsulların xarici bazarlara çıxarılma imkanlarını artırır. Bu məqsədlə muxtar respublikada ilk dəfə olaraq məhsul ixracına dəstək üçün "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilib. Müəssisənin əsas vəzifəsi məhsulların respublika ərazisində satışının genişləndirilməsi, qablaşdırma, dizayn, markalanma və digər göstəricilərin yaxşılaşdırılması, xarici ölkələrə ixracın təşkil edilməsindən ibarətdir.

Bu gün ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara böyük dəstək verilir. Bu istiqamətdə həm ölkənin daxilində, həm də xaricdə mühüm iqtisadi tədbirlər, o cümlədən biznes forumlar, sərgilər, seminar və konfranslar keçirilir. Təkcə 2018-ci ilin ötən dövrü ərzində Almaniya, Rusiya, Türkiyə, İran, Pakistan, İtaliya, Latviya, Çin, Qazaxıstan, Çexiya və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrin nümayəndələri ilə keçirilmiş 8-i biznes-forum, 11-i sərgi, 1-i konqres olmaqla, ümumilikdə, 20 beynəlxalq tədbirdə dövlət dəstəyi ilə muxtar respublikadan 123 sahibkarlıq subyektinin iştirakı təmin edilib. Bu tədbirlərin davamı kimi qarşılıqlı iqtisadi əlaqələrin inkişafı, ixrac və əməkdaşlıq imkanları məqsədilə 9 ölkənin rəsmi nümayəndə heyəti ilə 13 halda müxtəlif görüşlər keçirilib və fikir mübadilələri aparılıb.

Keçirilən beynəlxalq tədbirlər istər muxtar respublikanın biznes mühitinin və iqtisadi potensialının təbliği, istərsə də yerli sahibkarların işgüzar əlaqələrinin inkişafı baxımından əhəmiyyətlidir. Xüsusilə xarici ölkələrdə təşkil edilən tədbirlər, eyni zamanda iqtisadiyyatın prioritet inkişaf istiqamətləri üzrə investisiya qoyuluşlarının həcminin artımında öz müsbət nəticələrini verməkdədir.

Qarşıda duran mühüm vəzifələrdən biri də ixracın həm məhsulların çeşidi, həm də coğrafiyası baxımından şaxələndirilməsidir. Bu məqsədlə "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi istiqamətində iş aparılır. Artıq muxtar respublika ixracatçıları xaricdə keçirilən sərgilərdə "Made in Azerbaijan" brendi altında vahid ölkə stendi ilə təmsil olunurlar. Bu çərçivədə cari ilin ötən dövrü ərzində Rusiyanın Həştərxan vilayətinə təşkil olunmuş ilk ixrac missiyasında muxtar respublikadan da nümayəndə heyəti iştirak edib və bu beynəlxalq sərgidə Naxçıvanda fəaliyyət göstərən "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin və Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin 22 çeşiddə mineral sularının nümayişi təmin olunub.

Muxtar respublika sahibkarları bu gün nəinki qonşu ölkələr, həmçinin dünyanın bir çox ölkəsi ilə yaxından əməkdaşlıq edirlər. "Ləzzət Qida Sənaye" MMC və "Gəmiqaya Mineral Sular" MMC Dubayda keçirilən ən nüfuzlu sərgilərdən biri olan "Gulfood-2018" sərgisində Naxçıvanın brend məhsullarından olan "Sirab", 3 növdə 19 çeşiddə "Badamlı" mineral suları nümayiş etdirib.

Növbəti ixrac missiyası 2018-ci il 24-26 oktyabr tarixlərdə İstanbulda təşkil olunub. Missiyaya qida, inşaat materialları, mebel istehsalı, turizm, yüngül və kimya sənayesi sahələrində fəaliyyət göstərən Azərbaycan şirkətləri ilə yanaşı, muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 20 nümayəndəsi daxil edilib.

Missiya çərçivəsində "Badamlı Mineral Sular", "Şərur-3", "Savalan-S", "Ordubad Qənnadı Məmulatları" Məhdud Məsuliyyətli və Babək "Sirab"Açıq Səhmdar cəmiyyətlərinin nümayəndələri Türkiyədə qida, spirtli və spirtsiz içkilərin idxalı ilə məşğul olan TADCO Gida Pazarlama İç və Dış Ticarət LTD şirkətinin nümayəndəsi ilə ikitərəfli görüşlər keçirib, Naxçıvan məhsullarının Türkiyəyə ixracının genişləndirilməsinə dair müzakirələr aparılıb.

Muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və beynəlxalq tələblərə cavab verən laboratoriya fəaliyyət göstərir. İxrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar da məhz buradan təmin edilir. Belə ki, 2018-ci ilin ötən dövrü ərzində verilmiş 103 halda mənşə sertifikatları muxtar respublikada istehsal edilən məhsulların beynəlxalq tələblərə uyğun yoxlanılmasını təmin etməklə müəssisələrin xarici ölkələrə məhsul ixracını asanlaşdırıb.

Aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də investisiyaların təşviqi ilə bağlı həyata keçirilən tədbirlərdir. İnvestisiya təşviqi sənədi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, eləcə də stimullaşdırılmasına nail olmaq məqsədi daşıyır. Xarici bazarlara çıxışın təmin edilməsində muxtar respublikada fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, onlara xarici bazarlara çıxış üçün müxtəlif dəstək mexanizmlərinin tətbiqi dairəsi genişlənir.

Sahibkarların mütəmadi olaraq maarifləndirilməsi, onlara texniki və metodik dəstək göstərilməsi istiqamətində muxtar respublikanın İqtisadiyyat Nazirliyi tərəfindən mütəmadi seminar və təlimlər təşkil olunur. Məhsulların virtual məkanda təbliği, satışı şəbəkəsinin genişləndirilməsi, yeni məhsulların yaradılması, inkişaf etdirilməsi və digər bir çox sahədə lazımi dəstək göstərilir. Bu məqsədlə cari il sentyabr ayının 27-də Naxçıvan Biznes Mərkəzində Beynəlxalq Ticarət Mərkəzinin (İTC) dəstəyi ilə Avropa İttifaqına məhsul ixracı imkanları, bazar tələbləri, müasir marketinq alətləri, beynəlxalq sərgilərdə iştirak qaydaları və daha yaxşı nəticələrin əldə edilməsi mövzularında təlim təşkil edilib.

İxracın artırılması üçün qarşıda duran əsas vəzifələr rəqabətqabiliyyətli və yüksəkkeyfiyyətli məhsul istehsalının təşviqinə, müəssisələrin mövcud potensialının inkişafına, məhsulların daha geniş məkanda təbliğinə və real sektorda dayanıqlı ixraca nail olmaqdan ibarətdir. Gələcəkdə bu istiqamətlərdə həyata keçirilən tədbirlər daha da gücləndiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Dəstə kəndi müasir yaşayış məntəqəsinə çevrilir

***Dəstə kəndi muxtar respublikamızın ən iri yaşayış məntəqələrindən biridir. Sərhəd bölgəsində yerləşən bu kənddə son illər bir sıra quruculuq tədbirləri həyata keçirilməkdədir. 36 meqavatlıq Ordubad Su Elektrik Stansiyası öz başlanğıcını bu kəndin ərazisindən götürəcək.***

Bu məqsədlə kəndin Araz çayı kənarında xeyli inşaat işləri yerinə yetirilib. Bundan başqa, Dəstədə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları tərəfindən 900 şagird yerlik 4 mərtəbəli məktəb binasının, iki mərtəbədən ibarət həkim ambulatoriyasının, kənd və xidmət mərkəzlərinin tikintisi, demək olar ki, başa çatdırılıb.





Kənd məktəbində 3-ü elektron lövhəli olmaqla, 43 sinif otağı, idman zalı, laboratoriyalar, şahmat və hərbi kabinə müəllim və şagirdlərin ixtiyarına veriləcək. Bina müasir istilik qurğuları ilə qızdırılacaq.

Həkim ambulatoriyasında stomatoloq kabinəsi, doğuş, peyvənd, mama, qeydiyyat, səhiyyə maarifi mərkəzi, palata, manipulyasiya, tibb bacısı otağı, fizioterapiya kabinəsi və əczaxana fəaliyyət göstərəcək.

Kənd mərkəzində rabitə evi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, statistika otağı, polis sahə və baytarlıq məntəqələri, eləcə də iclas zalı olacaq.

Bir mərtəbədən ibarət xidmət mərkəzində isə ərzaq və sənaye malları mağazaları, gözəllik salonu, bərbərxana, dərzi sexi və ət satışı dükanı kənd sakinlərinə xidmət göstərəcək.

Kənddaxili yolların asfaltlaşdırılması işi də başa çatdırılıb, yol kənarlarında suayırıcılar düzəldilib, ətraf abadlaşdırılıb. Bu işləri Culfa rayonunun yol ustaları yerinə yetiriblər.

**Abbas SEYİD**

## Payız suvarma mövsümü mütəşəkkil təşkil olunub

Bu ilin oktyabr ayında da meliorasiya və irriqasiya tədbirlərinin həcmi genişləndirilmiş, payız suvarma mövsümünün mütəşəkkil keçirilməsi və əkin sahələrinin suvarma suyu ilə təmin olunması istiqamətində işlər davam etdirilmişdir. Qeyd olunan dövrdə su istifadəçilərinə 10 milyon kubmetr suvarma suyu verilmiş, təkrar suvarma da daxil olmaqla, 8 min 658 hektar torpaq sahəsi suvarılmış, 19 kilometr beton və torpaq kanal, 23 kilometr ara arxlar lildən təmizlənmiş, 20 kilometr yeni suvarma boru xətti çəkilmiş, 4 kilometr suvarma boru xətti təmir olunmuşdur.



Kəngərli rayonunun Böyükdüz kəndindəki 600 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 20 min 186 metrlik xətt çəkilmişdir. Torpaqların qrunt sularından təmizlənməsi üçün açıq drenaj kanalı qazılmış, 157 hektar sahənin meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Ötən ay muxtar respublikanın yaşayış məntəqələrində 3 kilometrdən çox yeni içməli su xətti çəkilmiş, 6 kilometrdən çox içməli su xətti təmir edilmişdir. Kəhrizlərin təmir-bərpası oktyabr ayında da diqqətdə saxlanılmış, 5 kəhrizdə bərpa işləri davam etdirilmişdir. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan 56 subartezian quyusunda isə təmir işləri aparılmışdır.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Ordubad və Şahbuz rayonlarında işlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

# Naxçıvan dünən

## Könlü balıq istəyənin...

...Muxtar respublikada balıqçılığın inkişafı üçün geniş imkanlar vardır. Arpaçayda, Arazda, su anbarlarında qiymətli balıq növləri yetişdirmək mümkündür.

Aparılan kompleks hidrobioloji tədqiqat işlərinin nəticələri göstərir ki, az kapital qoyuluşu və zəhmət tələb edən bəzi tədbirləri həyata keçirməklə bütün su anbarlarının balıq məhsuldarlığını xeyli artırmaq və bol, təzə balıq əldə etmək olar. Qanunsuz balıq ovunun qarşısı alınmalıdır. Bəziləri balıqları dayazlıqlarda kürü tökərkən yaba, armatur, tros parçası və sair vasitələrlə tutmağa çalışır. Belə "ov" xeyli kürü tökən balığın yaralanıb qaçmasına və sonradan məhvinə səbəb olur.

Bir vaxtlar balığı yığıb-yığışdırmaq olmurdu. İndi vəziyyət tamamilə dəyişib. Balıq ovunun kütləvi xarakter alması pis nəticələr vermişdir. Bu iş, demək olar ki, başlı-başına buraxılmışdır. Naxçıvan Su Anbarında balıq ovlayan təşkilat bir olmalıdır və həmin təşkilat yerli, sənaye əhəmiyyətli balıq növlərinin (aynalı, karp, çəki, sıf və sair) körpələrinin süni şəkildə çoxaldılıb həmin hövzəyə buraxması ilə onun ehtiyacını bərpa etməyə borcludur. Mövcud su anbarlarının heç birinin nasos və şlüzlərində balıq mühafizəedici qurğular qoyulmamışdır. Buna görə də xeyli miqdarda balıq körpəsi nasoslarda və ya suvarma suyu ilə sahələrə axaraq məhv olur. Yeni tikilən Vayxır, Qazançı Su anbarlarında hökmən belə qurğuların qoyulmasının qayğısına qalmaq lazımdır. Bu mühüm məsələ əlaqədar təşkilatları nədənsə narahat etmir. Bir sözlə, könlü balıq istəyən hər bir kəs bütün bu deyilənlərə ciddi əməl etməlidir.

***"Şərq qapısı" qəzeti***
***7 noyabr 1992-ci il***

# və bu gün

## Balıqçılıq inkişaf etdirilir, yerli məhsullar süfrələrimizi bəzəyir

***Bu sətirlər 26 il bundan öncə çətinliklərlə üzləşdiyimiz bir dövrdə ürək yanğısı ilə qələmə alınıb. O vaxtlarda ki Naxçıvan bir tərəfdən xain qonşularımızın hücumlarına məruz qalır, təkbaşına ona inadla müqavimət göstərir, hətta düşmənə ağır zərbələr vuraraq geri çəkilməyə vadar edirdi. Digər tərəfdən isə qədim yurdumuz blokadaya salınması ilə bağlı yaranmış çox ciddi problemlərlə mübarizə aparmalı olurdu. Buna, əslində, ölüm-dirim mübarizəsi də deyə bilərik. Çünki işğal təhlükəsi hələ də sovuşmamışdı. Belə bir məqamda bu sahə ilə bağlı məqalənin dərc olunması onu göstərirdi ki, görkəmli dövlət xadimi Heydər Əliyevin ətrafında sıx birləşən muxtar respublika sakinləri gələcəyə böyük ümidlə baxır, qaldırılan bütün məsələlərin öz həllini tapacağına inanırlar. Bu inam da əbəs deyildi. Ona görə ki, ulu öndərimiz Naxçıvana gəldikdən sonrakı dövrdə bizim üçün xəyal kimi görünən bir çox problemi qısa zamanda həll etmişdi...***





"Könlü balıq istəyənin ..." məqaləsinin süjet xəttinə diqqət yetirsək, görərik ki, burada müəllifi narahat edən məsələlər daha çox balıqçılıqla bağlı konkret bir qurumun olmaması, balıqların kürüləmə vaxtında qanunsuz şəkildə ovlanması, sututarların ekoloji vəziyyəti ilə bağlı problemlər idi.

Ötən müddətdə dahi şəxsiyyətin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, məqsədyönlü islahatların aparılması bu sahədə də mühüm nailiyyətlərin əldə edilməsinə geniş imkanlar açdı. Bu gün Naxçıvan Muxtar Respublikasında 15 balıqçılıq təsərrüfatı fəaliyyət göstərir, onlar əhalinin bu məhsullara olan tələbatının davamlı şəkildə ödənilməsinə çalışırlar. Müxtəlif balıq növlərinin təbii halda yetişdiyi çay, göl və su anbarlarımız xüsusi şəkildə mühafizə olunur. Bu su hövzələrində muxtar respublika əhalisinin tələbatını tam şəkildə ödəyə biləcək yüksəkkeyfiyyətli balıq sortları üçün əlverişli təbii şərait yaradılıb. Görülən tədbirlər bu qiymətli sərvətin qorunub, çoxaldılmasına imkan verib. Əhalinin keyfiyyətli balıq məhsulları ilə təminatı və balıqçılığın inkişafı üçün görülən bu tədbirlər, son nəticədə, ərzaq təhlükəsizliyinin təmin olunmasında digər sahələrlə yanaşı, balıqçılıq təsərrüfatlarının da rolunun artırılması məqsədi daşıyır, muxtar respublikada balıq və digər su resurslarının qorunması, bərpa və mühafizəsinə xüsusi diqqət yetirilir. Hazırda Naxçıvanda balıq və digər su bioresursları, o cümlədən nadir və nəsli kəsilməkdə olan növlər əmtəə məhsulu əldə edilməsi məqsədilə balıqçılıq obyektlərində artırılır. Süni və təbii göllərdə dünya təcrübəsinə əsaslanmaqla balıq yetişdirilir. Əvvəllər "akvakultura" adlanan göl balıqçılığı diqqətdən kənarda qalmışdısa, indi bu balıqçılıq növünün inkişafına da ciddi önəm verilir. Balıq yetişdirən və balıqçılıq məhsulları istehsal edən müəssisələr formalaşır. Görülən işlər dövlətimizin bu sahəyə diqqət və qayğısından xəbər verir. Bu qayğının ifadəsidir ki, 2015-ci il sentyabr ayının 10-da muxtar respublika rəhbərinin iştirakı ilə Naxçıvan "Balıqçılıq Təsərrüfatı" üçün yeni kompleks istifadəyə verilib, bununla da əhalinin keyfiyyətli balıq məhsulları ilə təminatı sahəsində əhəmiyyətli dəyişikliklərə nail olunub.

Balıq ovu mövsümünün başlanması ilə balıqçılar Araz çayında ova çıxırlar. İndi mağazalardan sərfəli qiymətə müxtəlif növ təzə balıq almaq mümkündür.

Ötən günlərdə bu sahədə görülən işlərlə tanış olmaq üçün Naxçıvan "Balıqçılıq Təsərrüfatı"na yollandıq. Araz çayına yaxın bir ərazidə yerləşən kompleksdə öyrəndik ki, sovetlər dövründə yarıtmaz binalarda, köhnə avtomobillərlə və kiçik imkanlarla fəaliyyət göstərən kollektiv üçün bu gün müasir tələblər səviyyəsində şərait yaradılıb, balıqçılığın inkişaf etdirilməsi məqsədilə geniş imkanlar açılıb. Təsərrüfatın əsas vəzifələrindən biri də balıq ovlanması ilə yanaşı, balıq yetişdirilməsidir. Bunun üçün kompleksdə 40 qapalı hovuzun hər birində 25 min olmaqla, il ərzində 1 milyon balıq yetişdirilir. Hovuzlar balıqların çoxalıb böyüməsi üçün zəruri mikrobioloji mühitlə təmin olunub, bunun üçün avadanlıqlar quraşdırılıb. Bu da imkan verir ki, muxtar respublikanın su hövzələrində balıq artırılması mövcud hövzələrimizin bioloji xüsusiyyətlərinə və əhalinin tələbatına uyğun şəkildə öz imkanlarımız hesabına mümkün olsun.

Öyrəndik ki, Naxçıvanın su hövzələrindən tutulan çəki, suf, xəşəm, naxa, qalınalın, dabanbalığı kimi balıq sortlarına mövsüm ərzində böyük tələbat vardır. Bazardakı tələbatı ödəyə bilmək üçün mövcud hava şəraitindən istifadə edərək gün ərzində lazım olan həcmdə balıq ovlanır, muxtar respublikada əhalinin balıqla təminatını ödəməyə səy göstərilir. Hazırda şəhərdə keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında adıçəkilən təsərrüfat fəal iştirak edir. Su hövzələrindən tutulan balıq növləri Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində laboratoriya analizindən keçdikdən sonra satışa göndərilir. Təzə balığın satış məntəqələrinə çatdırılması üçün "Hyundai" markalı avtomobil və 2 ton tutumlu soyuducu kamera vardır.

Naxçıvan "Balıqçılıq Təsərrüfatı"nda 31 nəfər işləyir. İşçilər lazımi avadanlıq və xüsusi geyimlərlə təmin olunur, onların təhlükəsizliyi diqqət mərkəzində saxlanılır. Bütün bunlar isə balıqçılara çətinliklərin öhdəsindən gəlməyə imkan verir. Onların bir neçəsi ilə söhbətimizdə bunları söylədilər:

– İstənilən hava şəraitində işləmək üçün vasitələrimiz vardır. Minnətdarıq ki, bizim üçün bu cür şərait yaradılıb. Əsas ona diqqət yetiririk ki, kiçik və lazımi çəkiyə uyğun gəlməyən balıqları ovlamayaq. Axı bu sərvət təkcə bu gün deyil, gələcəkdə də insanların karına gələcək. Ona görə də gözəl yurdumuzun təbii sərvətləri lazımınca qorunduğu kimi balıq ovunun qaydalarına da ciddi əməl olunur. Necə deyərlər, könlü balıq istəyən hər bir insan onu alıb süfrəsinə gətirə bilir. Bu isə o deməkdir ki, ötən əsrin 90-cı illərindəki bir sıra mühüm problemlərlə yanaşı, bu məsələ də artıq öz həllini tapıb.

Müşahidələrimizə əsaslanaraq deyə bilərik ki, Heydər Əliyev, Araz, Arpaçay və Uzunoba Su anbarları kimi iri su hövzələrində öz fəaliyyətini genişləndirən Naxçıvan "Balıqçılıq Təsərrüfatı" qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün yaradılmış şəraitdən lazımınca istifadə etməyə çalışır.

**Ramiyyə ƏKBƏROVA**

***Dünyada gedən qloballaşma prosesləri və əhali artımı ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini zəruri edib. Bu problem Azərbaycanda ərzaq təminatının maddi əsasını təşkil edən sahələrin məhz regionlar üzrə ixtisaslaşmasına səbəb olub. Naxçıvan Muxtar Respublikasında da ərzaq təhlükəsizliyini təmin etmək üçün məqsədyönlü işlər görülür. Nəticədə, əhalinin ərzaqla təminatı daxili imkanlar hesabına ödənilir.***

## Muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün məqsədyönlü işlər görülür



İnkişaf etmiş ölkələrin təcrübəsi belə qənaətə gəlməyə əsas verir ki, ölkənin ərzaq təhlükəsizliyində idxal kanallarından asılılığın kifayət qədər zərərli nəticələri ola bilər. Çünki idxaldan asılılıq, son nəticədə, ərzaq bazarının strukturuna mənfi təsir göstərir. Kənd təsərrüfatının təkmilləşdirilməsi makroiqtisadi baxımdan muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsində ən mühüm vasitələrdən hesab olunur. Naxçıvanın blokada şəraitində olması bunu daha da zəruri edir, bu istiqamətdə müxtəlif layihələr həyata keçirilir.

Mövzu ilə əlaqədar daha ətraflı məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin şöbə müdiri Kərəm Rəhimovla həmsöhbət olduq. O bildirdi ki, muxtar respublika iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Buranın torpaq-iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması tarixən əkinçiliyin inkişafını şərtləndirib. Diyarımızda özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşmasının əsası ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə, ötən əsrin 90-cı illərində qoyulub. Bu dövrdə ilk dəfə muxtar respublikamızda həyata keçirilən aqrar islahatlar sonrakı dövrdə Azərbaycanın bütün ərazisində davam etdirilib, kənd təsərrüfatının inkişafı yeni modeldə, özəl təsərrüfatların yaradılması yolu ilə aparılıb. Hazırda diyarımızın ümumi sahəsinin 30 faizi kənd təsərrüfatına yararlı torpaq sahəsidir. Bunun da 38 faizi əkin altında olan suvarılan torpaqlardır. Artıq muxtar respublikada bu sahəni əhatə edən yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması, əkinçiliyin və heyvandarlığın inkişaf etdirilməsi, güzəştli şərtlərlə kreditlərin verilməsi məhsul istehsalının artırılmasına və nəticə etibarilə, ərzaq təhlükəsizliyinin təmin olunmasına imkan verib.

Bu gün qeyd olunan islahatların davamı kimi dövlət proqramları, qanunlar qəbul edilir, aqrar sahənin inkişafına hesablanmış tədbirlər həyata keçirilir. Dövlət proqramlarının icrası nəticəsində taxıl, dən üçün qarğıdalı, kartof, tərəvəz və bostan məhsulları, meyvə və üzüm istehsalı ilbəil artır, tələbat, əsasən, yerli istehsal hesabına ödənilir. Toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların ödənilməsi, yanacaq-sürtkü materiallarına görə verilən yardımların 50 manata çatdırılması, istifadə olunan gübrələrin 70 faizinin pulsuz verilməsi, satılan texnikaların dəyərinə 40 faiz güzəşt tətbiq edilməsi kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara bu sahəni inkişaf etdirmək üçün güclü stimul verib.

Muxtar respublikada əkin altında olan torpaq sahələrindən səmərəli istifadə edilməsində əkinçiliyin elmi əsaslarla inkişafının mühüm rolu vardır. Bu məsələnin həllində "Əkin atlasları"nın böyük əhəmiyyəti olub. Belə ki, 2011-ci ildən etibarən hər bir şəhər və rayonlar üzrə hazırlanmış "Əkin atlasları"nda torpaq-iqlim xüsusiyyətləri, torpaqların qida maddələri ilə təminolunma dərəcəsi, əkiləcək bitkilərin botaniki xüsusiyyətlərini nəzərə almaqla, sortların rayonlaşdırılması və ixtisaslaşma istiqamətləri öz əksini tapıb. Artıq əkinçilikdə ixtisaslaşmanın dərinləşməsi əkin sahələrinin və məhsul istehsalının artması ilə öz müsbət nəticəsini verir.

Bunlardan əlavə, torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi əkinçilikdə başlıca şərtlərdən biridir. Buna görə də muxtar respublikada irriqasiya sistemləri daim yeniləndirilir, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. Suvarma sistemlərinin ilbəil təkmilləşdirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, Culfa, Babək və Kəngərli rayonlarında qapalı suvarma şəbəkələri tikilib.

Müsahibimin sözlərinə görə, muxtar respublikamızın iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik aborigen meyvə və tərəvəzlərin əkini üçün elmi-tədqiqat işləri də aparılır. Bu istiqamətdə nazirliyin "Araz" Elm-İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində aparılmış tədqiqat işləri nəticəsində 372 meyvə sortunun genetik fondu yaradılıb. Hazırda bu istiqamətdə işlər davam etdirilir. Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də əsaslı işlər həyata keçirilib. Naxçıvan şəhərində "Bərəkət" Toxumçuluq Təsərrüfatının texnoloji avadanlıqlarla təchiz olunmuş yeni kompleksi istifadəyə verilib. Muxtar respublikanın əsas toxumçuluq bazası olan bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının istehsal və satışı da həyata keçirilir.

Əhalini ilboyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək üçün iritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində bazarın tələbinin ödənilməsinə imkan verir. Hazırda muxtar respublikada ümumi tutumu 14 min 30 ton olan 31 soyuducu anbar sahəsi və 127 min 162 kvadratmetr olan 21 istixana kompleksi fəaliyyət göstərir. Əhalinin ərzaq məhsullarına olan tələbatının etibarlı ödənilməsi istiqamətində tədbirlər davam etdirilir, istehsal olunan malların satışı üçün hərtərəfli şərait yaradılır.

Artıq bir neçə ildir ki, torpaq mülkiyyətçilərinin tədarük etdikləri məhsulların satışını təmin etmək üçün təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkaları və tanıtım məqsədli bir sıra festivallar da əhalinin ərzaq məhsulları ilə etibarlı təmin olunmasına öz töhfəsini verir.

**Pərviz HACILI**

*Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən, ilkin şəhər mədəniyyətinin yarandığı ərazilərdən biri olmuş, əsası bir yaşayış məskəni kimi 8 min il əvvəl qoyulmuş və 5 min il bundan əvvəl şəhər kimi formalaşmağa başlamış Naxçıvan tarix-mədəniyyət abidələri ilə zəngin bir diyardır. Tarixçi alimlərimiz deyirlər ki, əgər kitablar tarixin yazılı yaddaşıdırsa, abidələr tariximizin daş yaddaşıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2005-ci il 6 dekabr tarixdə imzaladığı “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” Sərəncam tariximizin daş yaddaşına verilən böyük dəyər olmaqla yanaşı, həm də abidələrimizin bərpasına, onların həyata yenidən vəsiqə almalarına səbəb olub.*

*Ömrünün 50 ildən artıq dövrünü muxtar respublikamızda memarlıq-inşaat sahəsində çalışan, ötən illər ərzində tarix-memarlıq abidələrimizin bərpasına rəhbərlik edən Arif Əzizova Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 12 oktyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi naxçıvanlılar tərəfindən mədəni irsimizin yaşadılmasında əməyi olan insanlara verilən yüksək qiymət kimi dəyərləndirildi. Bu münasibətlə Arif müəllimlə görüşüb söhbətləşdik:*

# Nəsillərin nəsillərə yadigarı

## Ömrünün çoxunu qədim diyarımızın tarix-memarlıq abidələrinin bərpasına həsr edən Prezident təqaüdçüsü Arif Əzizov onları bu cür dəyərləndirir



***– Öncə bütün kollektivimiz adından göstərilən bu etimada görə sizi təbrik edir, yaşı əsrlərin daş yaddaşına həkk olunmuş Naxçıvanımızın qədimliyinin yaşadılması işlərində bundan sonrakı fəaliyyətinizdə də uğurlar arzulayırıq.***

– Çox sağ olun. Bəli, bu, çox böyük bir etimaddır. Mən Prezident təqaüdünə layiq görüldüyüm üçün cənab Prezidentimizə minnətdarlığımı bildirirəm. Onu da qeyd edim ki, bu sahədə zəhmətim 2005-ci ildə Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən də yüksək qiymətləndirilmiş və “Naxçıvan Muxtar Respublikasının Əməkdar memarı” fəxri adına layiq görülmüşəm. Vurğulamaq istəyirəm ki, ölkəmizdə əməyi, zəhməti ilə fərqlənənlərin fəaliyyətlərini qiymətləndirmək ənənəsinin təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərin Azərbaycanda hakimiyyətdə olduğu hər iki dövrdə bu məsələ önə çəkilmiş, müxtəlif sahələrdə fərqlənən insanlara fəxri adlar, dövlət mükafatları verilmişdir. Təltiflərimin hər ikisi mənim ömür səhifələrimə qızıl hərflərlə yazılan və qürur duyduğum mühüm hadisədir. Oktyabrın 18-də – Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən orden və medalların, fəxri adların, döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimində iştirak etdiyim, ürək sözlərimi söylədiyim gün də çox şadam. Mən artıq ömrümün 74-cü baharındayam. Bundan sonra da tarix-memarlıq abidələrimizin hər daşının, hər naxışının əsrlər öncə tikildiyi kimi bərpasına çalışacağam ki, bu qədim diyarımızın daş yaddaşına heç bir xələl gəlməsin.

***– Həyatının yarıdan çox hissəsini memarlıq-inşaat işlərinə həsr edən Arif müəllim üçün tarixi abidələr nə deməkdir?***

– Sualınızı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dəyərli fikirləri əsasında cavablandırmaq istəyirəm: ***“Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar”.*** Abidələrin, tarixi tikililərin bərpası ilə məşğul olan bir mütəxəssis kimi mənim üçün onlar tarixdir, kitabdır, o kitab ki vərəqlədikcə hər yeni səhifədə qədim yurdumuzun keçmişindən bəhs edən bir hadisənin salnaməsini görmək olur.

***– Naxçıvan və abidələr… Diyarımızın müxtəlif yerlərində olan abidələrə, onların tarixinə – dününinə, bu gününə bələd olan insan kimi, sizcə, o abidələr nədən “söhbət açır”?***

– Bildiyimiz kimi, alimlər elmi araşdırmalar apararkən abidələri iki aspektdə öyrənirlər: yeraltı və yerüstü tarixi abidələr. Yeraltı qədim abidələr dedikdə mağaralar, kurqanlar, qəbirlər və digərləri, yerüstü abidələr dedikdə isə məişət tikililəri, qala, məscid, günbəz, körpü kimi keçmişin yadigarları yada düşür. Bunların hər biri Naxçıvanda vardır. Bura tarixi abidələr diyarı, ilkin mədəniyyət ocağı, ümumilikdə isə İslam mədəniyyətinin beşiyidir. Bax tarixi abidələrimizin hər biri bunlardan “danışır”, bu fikirləri təsdiqləyir.

Bəziləri tamamilə torpağın dərinliklərində qalan, bəzilərinin qalıqları çətinliklə tapılan, bəzilərininsə bir tərəfi uçub-tökülən tarixi abidələrin son 20 ildə muxtar respublika rəhbərinin sərəncamları ilə bərpası onlara yeni həyat bəxş edib. Bərpa və tikintisinə rəhbərlik etdiyim Qarabağlar Türbə Kompleksi, Gülüstan, Yusif Küseyir oğlu, Nəiminin və Nuh Peyğəmbərin türbələri, Xan sarayı, Naxçıvanqala, İmamzadə, Qeysəriyyə tarixi abidələri, Əcəmi seyrəngahı, Açıq səma altında muzey, Yengicə kəndindəki Şərq hamamı, İsmayılxan hamamı, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Yusif Məmmədəliyevin ev-muzeyləri və digərləri bu diyarın qədim tarixindən, zəngin mədəniyyət və ədəbiyyat ocağı olmasından “söhbət açır”. Eyni zamanda həmin tikililər bu qədim yurdun tarixi keçmişini özündə yaşatmaqla bərabər, həm də müasir dövrdə turizm potensialının artmasına xidmət edir.

***– Arif müəllim, bərpa işlərində ən çox diqqət yetirdiyiniz məqamlar hansılardır?***

– Təbii ki, orijinala istinad. Abidələrin özünəməxsus memarlıq üslubuna xələl gətirməmək. Verilmiş layihə əsasında keyfiyyətli bərpa.

***– Bəs elə olubmu ki, abidələrdə və tarixi tikililərdə bərpa zamanı maraqlı, gözləmədiyiniz, sizin üçün yeni olan nələrəsə rast gələsiniz?***

– Əlbəttə, dəfələrlə. Xan sarayının bərpası zamanı maraqlı bir hadisə baş verdi. Tapşırıq verilmişdi ki, binanın həyət hissəsi bir qədər də dərinləşdirilsin. Qazıntı aparılarkən ərazidə vaxtilə tikilmiş yaşayış binasının bünövrəsinin altından sal daşlar çıxdı. Daşları qaldırarkən burada torpaqla dolmuş quyu və onun 15 metrinin kərpiclə hörüldüyünü gördük. Araşdırmalar bunun xan evinin “dol-qayıt” quyusu olduğunu təsdiqlədi. 5 metr də təmizlədik, ümumilikdə, 20 metr dərinlikdə olan quyuya nasos da qoyuldu, işə salındı.

Qarabağlar türbəsinin bərpası zamanı isə türbə ilə qoşa minarə arasında divar qalıqları olan yerdə bizim üçün tamamilə yeni olan bir görüntü ilə qarşılaşdıq. Burada çox sayda təndirlərə, kürsülük, dən döymək üçün yerlərə rast gəldik. Sözsüz ki, bütün bunlar vaxtilə zəvvarların burada müəyyən müddət qalmasının göstəricisidir.

Hazırda Culfa rayonunun ərazisində orta əsrlərdə Əlincəçay üzərində inşa edilən Şərq memarlıq üslubunun bənzərsiz nümunələrindən olan Qazançı körpüsünün bərpasını tamamlamaq üzrəyik. Burada da maraqlı bir hadisə baş verdi. Yenə də bərpa işlərini layihə çərçivəsində həyata keçirir, çalışırdıq ki, bu tarixi abidənin qədim görünüşü olduğu kimi qalsın. Körpünün aşağı hissələrini buraya yaxın olan dağdakı daşlarla işlədik. Qeyd edim ki, bütün bərpa işlərində yerli məhsullara üstünlük veririk. Çünki onlar əvvəlki tikinti materiallarına çox uyğun gəlir. Qədim abidələrin də hər biri, sözsüz ki, vaxtilə bu yerin daşları ilə tikilib. Körpünün tağ və məhəccər hissəsinə çatanda buraya sarımtıl daşlar qoyulmalı idi ki, orijinala uyğun gəlsin. Neçə cür daşdan istifadə etdiksə, heç cür uyğunlaşdıra bilmədik. Abidənin bərpasında maraqlı olan və tez-tez buraya gələn Qazançı kənd sakini, 83 yaşlı şair Qabil Abbas axtardığımız daşları Ərəfsə kəndinə gedən yolun üstündəki dağdan tapa biləcəyimizi söylədi. Həmin daşlara baxdıq, həqiqətən, uyğunluq çox idi. Böyük olan bu daşlar maşın-texnika vasitəsilə çıxarılıb “Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinə gətirildi, orada bizə lazım olan düzbucaqlı şəklə salındı. İstifadə zamanı isə həmin daşlar bərpa işlərini aparan inşaatçılar tərəfindən yonulub lazım olan formaya salındı və körpünün tağ və məhəccərlərinə qoyuldu. Eynilə körpünün orijinalında olan görünüşü ala bildik. Kim bilir, bəlkə də, elə vaxtilə körpünün tikildiyi zaman da həmin daşlardan istifadə edilibmiş. Yeri gəlmişkən, qəzetiniz vasitəsilə Qabil Abbasa da minnətdarlığımı bildirmək istəyirəm. Belə yaşlı insanlar hər daşı bir tarix olan Naxçıvanın canlı abidələridir.

***– Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar təsdiq edilmiş Tədbirlər Planına əsasən Naxçıvandakı türk-islam mədəniyyəti abidələrindən Möminə xatın, Yusif Küseyir oğlu, Gülüstan türbələrinin və Qarabağlar Türbə Kompleksinin İSESKO-nun siyahısına daxil edilməsi ilə bağlı müvafiq sənədlər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Hər bir naxçıvanlı üçün böyük uğur olar ki, yaşı tarixin özü qədər qədim abidələrimiz həmin siyahıya daxil edilsin.***

– Qeyd edim ki, Ali Məclis Sədrinin Sərəncamı ilə ərazidəki tarix-mədəniyyət abidələri pasportlaşdırılarkən bu abidələr dünya əhəmiyyətli abidələr sırasına daxil edilmişdir. Əlbəttə, bu abidələrin İSESKO-nun siyahısına salınması ilə əlaqədar məsələ qaldırılması çox təqdirəlayiqdir. Qədim Naxçıvanımız buna bütün tarixi keçmişi ilə layiqdir.

***– Bu gün Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsində də gənc memarlar yetişdirilir. Düşünürük ki, tarixi abidələr diyarında belə mütəxəssislərə, xüsusilə də bərpaçı memarlara daim ehtiyac var.***

– Böyük Xalq şairi Səməd Vurğun deyir:

*Kim bilir neçədir dünyanın yaşı,*
*Tarixin nə qədər yazısı vardır,*
*Hər saxsı parçası, hər məzar daşı*
*Nəsildən nəsilə bir yadigardır.*

Əlbəttə, ötən nəsillərdən qalan bu yadigarları biz də gənc nəsillərə etibar edəcəyik. Sevindirici haldır ki, Naxçıvanda memarlar yetişir. Çünki tarixlə yaranıb, tarix durduqca yaşayacaq bu abidələrin daim bərpaya ehtiyacı olacaq.

***– Arif müəllim, abidələr tariximizin döyünən ürəyidir. O döyüntünün bir an dayanması tariximizə, mədəniyyətimizə xain əllərin qəsdi deməkdir.***

– İndi hər bir naxçıvanlı əmin ola bilər ki, o döyüntü bir an da dayanmayacaq. Çünki 20 ildən artıqdır ki, Azərbaycan, eləcə də minilliklər öncəki dünya tarixini özündə yaşadan, ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanımızın tarixini, milli-mənəvi dəyərlərini əks etdirən abidələri, tarixi tikililəri öyrənilir, təbliğ edilir, bərpa olunur, qorunur. Bu, o deməkdir ki, tariximiz olduğu kimi yaşadılır və gələcək nəsillərə çatdırılır. Tarixi-mədəni irsi qorumaq isə hər birimizin vətəndaşlıq borcudur.

*– Maraqlı müsahibə üçün sağ olun.*

**Müsahibəni qələmə aldı:**
**Mətanət MƏMMƏDOVA**

# “Məcburi dövlət sosial sığortahaqqını ödəyən hər bir vətəndaş sığorta stajı qazanmış olur” mövzusunda tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilir.



Növbəti belə tədbir Naxçıvan Şəhər Şöbəsi tərəfindən sığortaolunanların iştirakı ilə “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqında keçirilib.

Tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin Ərazi idarəetmə şöbəsinin müdiri İsmayıl Gülməmmədov açaraq məcburi dövlət sosial sığortasının əhəmiyyəti barədə məlumat verib.

Fondun Naxçıvan Şəhər Şöbəsinin müdiri Vüsal Məmmədzadə çıxışında qeyd edib ki, vətəndaşlara təyin olunan pensiyanın miqdarı sığorta stajından və ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının miqdarından asılıdır. Ona görə də hər bir vətəndaş yaşlı dövrünün maddi təminatının məsuliyyətini əmək fəaliyyəti göstərdiyi vaxtdan düşünməli, işlədiyi dövrlər üçün işəgötürən tərəfindən məcburi dövlət sosial sığorta haqlarının tam miqdarda ödənilməsinə şəxsən maraqlı olmalıdır.

Bildirilib ki, sığortaolunanın pensiyasının məbləği birbaşa onun əmək fəaliyyəti dövründə ödədiyi məcburi dövlət sosial sığorta haqlarının məcmusundan asılıdır. Sığortaolunanın fərdi şəxsi hesabında toplanan pensiya kapitalı çox olarsa, onda onun əmək pensiyasının məbləği də artacaqdır.

Tədbirdə fondun Naxçıvan Şəhər Şöbəsinin Gəlirlər sektorunun müdiri Asim Cəfərov sığorta-pensiya sisteminin xüsusiyyətlərindən danışıb. Qeyd olunub ki, məcburi dövlət sosial sığorta haqları fondun internet səhifəsində onlayn ödəmə bölməsinə daxil olmaqla plastik bankomat kartları, banklarda nağd qaydada onlayn ödəniş yolu ilə və yerli poçt şöbələri vasitəsilə ödənilə bilər.

Fondun Naxçıvan Şəhər Şöbəsinin Pensiyaların təyinatı sektorunun müdiri Mənsur Mahmudov isə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən əmək pensiyalarının təyin edilməsi, əmək pensiyasının növləri, sosial sığorta stajının müəyyən olunması, pensiyaçılara pensiyaların ödənişində mütərəqqi ödəniş metodlarının tətbiqi haqqında tədbir iştirakçılarına məlumat verib.

Tədbirdə mövzu ilə əlaqədar slayd göstərilib və sığortaolunanları maraqlandıran suallar cavablandırılıb.

Sonra “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqı Aparatının rəhbəri Azər Cəfərov çıxış edərək bildirib ki, “Cahan Holdinq”də yeni əmək fəaliyyətinə başlayan hər bir sığortaolunan ilə əmək müqaviləsinin bağlanılması, qanunvericiliklə müəyyən olunmuş məbləğlərdə məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi və onların fərdi uçotunun təşkili ilə əlaqədar tələb olunan hesabat və məlumatların Dövlət Sosial Müdafiə Fonduna təqdim olunması hər zaman diqqətdə saxlanılır.

Sonda bir neçə sığortaolunana sosial sığorta şəhadətnaməsi təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Ali təhsil ocağında elmi-nəzəri seminar

*Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Klinik Xəstəxanasında “Gənclərin sağlam həyat tərzi milli genofondumuzun əsasıdır” mövzusunda elmi-nəzəri seminar keçirilib.*



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri giriş sözü ilə açaraq gənclərin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, uşaqların və gənclərin sağlam böyüməsi və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən bəhs edib.

Fakültənin Ümumi təbabət və gigiyena kafedrasının müdiri, dosent Gültəkin Əliyeva “Gənclərə sağlam həyat tərzinin aşılanması” mövzusunda danışaraq yeniyetmə və gənclərin sağlamlığının valideynlərinin sağlamlığından, uşaqlıq dövründə keçirdikləri xəstəliklərdən, qidalanma pozğunluğundan, qoruyucu peyvəndlərin alınmaması və sosial, psixoloji vəziyyətlərdən asılı olduğunu vurğulayıb.

“Gənclərin inkişafında sağlam qidalanmanın rolu” mövzusunda çıxış edən kafedranın müəllimi Sara Rəhimli qeyri-düzgün qidalanmanın uşaq və gənclərin, reproduktiv yaşda olan qadınların, hamilə və laktasiya dövründəki anaların orqanizminə mənfi təsir göstərə biləcəyini deyib.

Müalicə işi ixtisası üzrə V kurs tələbəsi Bənövşə Qasımova “Düzgün həyat tərzi və vaxtın idarə olunması” mövzusunda çıxış edib.

Sonda mövzu ətrafında müzakirələr olub.

**Badəm MƏMMƏDOVA**

*AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nuray Əliyevanın "Naxçıvan dialekt və şivələrinin etnoqrafik leksikası" adlı monoqrafiyası işıq üzü görüb.*

## Yeni monoqrafiya işıq üzü görüb




Nəşrin elmi redaktoru və ön sözün müəllifi AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, rəyçisi filologiya üzrə elmlər doktoru, professor İbrahim Bayramovdur.

Beş fəsil, nəticə və istifadə edilən ədəbiyyat siyahısından ibarət olan monoqrafiyada Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı rayonlarında işlənən və ədəbi dilimizdə mövcud olmayan maraqlı leksemlər araşdırmaya cəlb edilib.

Tədqiqat əsərində bitki, yemək və geyim adları, xalçaçılıqla bağlı işlənən leksik vahidlər, əkinçilik və heyvandarlıq terminləri araşdırılıb. Bu sözlərin tədqiqi dil tariximizin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

## *"Kitabi-Dədə Qorqud"* dastanı müzakirə edilib

*Ordubad rayonundakı Aza kənd tam orta məktəbində "Kitabi Dədə-Qorqud" dastanının müzakirəsi keçirilib. Tədbiri giriş sözü ilə məktəbin direktoru Təvəkkül Məmmədov açıb.*

Vurğulanıb ki, "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın ən böyük ədəbi abidəsidir. Dədə Qorqud boylarının əsas mahiyyətini yurdun və xalqın qorunması, xeyir qüvvələri təmsil edən qədim oğuzların yadelli işğalçılara – şər qüvvələrə qarşı ölüm-dirim savaşı, öz əhəmiyyətini indi də itirməyən bir çox əxlaqi-didaktik görüşlər təşkil edir.

Dastanın ideya-bədii xüsusiyyətləri barədə danışan məktəbin ədəbiyyat müəllimi İradə Zeynalova bildirib ki, dünya mədəniyyətinə çox böyük töhfələr vermiş Azərbaycan xalqının ən möhtəşəm tarixi abidəsi "Kitabi-Dədə Qorqud" dastanıdır. VII əsrdən üzübəri ozanların oğuz yurdunu oymaq-oymaq gəzib yaydıqları "Kitabi-Dədə Qorqud" boyları onun, hər şeydən əvvəl, yaşadığı ərazidə türk dilində danışan Azərbaycan xalqının yaşadığını sübut edən möhtəşəm bir dastandır.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"nda "Kitabi-Dədə Qorqud" dastanının özünə yer alması bu böyük yazılı abidəyə ehtiramın ifadəsidir.

Tədbirdə məktəbin yuxarı sinif şagirdlərinin ifasında dastandan parçalar bədii qiraət olunub.

**Şirin MİRZƏYEVA**
*Aza kənd tam orta məktəbinin uşaq birliyi təşkilatının rəhbəri*

*Etnoqrafiyamız*

# Çörək və çörəkbişirmə ilə bağlı inamlar

***Süfrələrin şahı, elin varı, sərvəti, Tanrı sovqatı olan çörək bütün insanlar üçün əvəzedilməz nemətdir. Xalqımız ən qədim zamanlardan çörəyə ehtiramla yanaşıb, evinə ən əziz qonaq gələndə onu duz-çörəklə qarşılayıb, çörəyi müqəddəs bir nemət, bərəkət kimi uca tutub. Zamanla xalq arasında çörək və çörəkbişirmə ilə bağlı çoxlu inamlar, atalar sözləri, məsəllər, alqış və hətta qarğışlar da yaranıb.***

Çörək and yeri, etibarlılıq, sədaqət, xeyir-bərəkət rəmzi sayılıb və xalqımızın inam yerinə çevrilib. Uzun müddət bir yerdə çörək yeyənlər "kişi ilə özümüz ağırlıqda duz-çörək kəsmişik", – deyərlər. Deyimdən də göründüyü kimi, çörəyi müqəddəs sayıb ona xəyanət etməmək tövsiyə olunur. Müşahidələr sübut edir ki, bu, heç də həmişə belə olmur. Bəziləri duz-çörəyi məqsədli şəkildə kəsir, onu sona qədər qoruyub saxlaya bilmirlər. Məqsədlərinə çatdıqdan, mövqeləri yüksəldikdən sonra kəsdikləri çörəyi unudurlar. Beləlırinə el arasında "çörəyi dizinin üstündə", "çörək ayaqlayan" deyilir.



Duz-çörəyə inam təkcə insanlararası münasibətlərdə deyil, heyvanların şərini sovmada da istifadə edilib. İt quduzlaşdıqda, həyətə ilan, bayquş gəldikdə ev sahibi onların qarşısına duz-çörək qoyub deyir: "Səni and verirəm bu halal çörəyə, kimsəyə zərər vermədən bu ərazidən get". İnsanlar bundan sonra həmin heyvanların oradan uzaqlaşdıqlarının şahidi olublar.

"Bir tikə çörəyin ovsanata düşüb, isti çörək yap, payla" ifadəsi xalq arasında inama görə, hansısa kasıba verilmiş bir loxma çətin anda insanın dadına çata bilər kimi izah olunur. Buna görə, əgər birisi qəzadan, gözlənilməz xətalardan qurtarırsa, bu ifadə işlənir və deyilir ki, isti çörək yapıb payla.

"Kasıbın xəmiri qurtaranda sacı qızar" ifadəsi kasıbçılıq, aclıqla əlaqəlidir. Bəllidir ki, sac qızmayınca çörək bişirmək olmaz. Bu ifadə də xəmirin, yəni yavanlığın, ruzi-bərəkətin azlığının dərəcəsini təsvir etmək üçün yaranan zərb-məsəldir. Bununla bağlı belə deyim də var: "Çıqqılı ələk, çıqqılı sac, əlim xəmir, qarnım ac", yəni az miqdarda un əldə edə bilən insanlar hər gün xəmir yoğurub, çörək bişirir, bu da çalışıb zəhmət çəkilsə də, kifayət qədər təmin oluna bilməməyə işarədir.

Müxtəlif folklor nümunələrimizdə tez-tez rast gəldiyimiz "Çörək Qurandan əvvəl gəlib" deyimi isə onun müqəddəs olması, hətta bəzən and yerinə çevrilməsi mənasını verir. Çətin anlarda "Yediyimiz çörəyə and olsun", "çörək haqqı" demək ən böyük zəmanət sayılıb hər zaman.

Çörəklə bağlı digər inanclar da var. Məsələn, çörəkbişirmənin sonunda balaca bir kömbə bişirərlər. Bu, evdə uşağın olmasına işarədir. Çörəyi bişirib qurtaranda heç vaxt "qurtardı" deməzdilər, onun əvəzində "çörək bərəkətləndi" deyərdilər. "Çörəyi süfrədən qaldırmamış durmaq günah sayılır", "Çörəyi süfrəyə tərsinə qoysan, evin bərəkəti göyə qaçar", "İsti çörəyin üstünə çıxanda "bərəkətli olsun", – deyib bir tikə kəsməsən, evin bərəkəti qaçar", "Təndirə küt getmiş çörəyi yeyən adam pul tapar", "Çörəyi tək əllə kəsmək günahdır" və sair.

Nəsildən-nəslə keçərək bu günümüzə gəlib çatan həmin inancların bir qismi dini baxımdan batil inanclar sayılır. Buna baxmayaraq, insanlar yaşamları boyunca müxtəlif həyat hadisələrinə söykənərək nəyə isə inanıb, ona arxalanıblar.

Müəyyən vaxtlarda çörəklə bağlı yaranan "Unluqdan unun, tabaqdan çörəyin, süfrəndən urfan əskik olmasın", "Az işləyib çox yeyəsən", "Ağüzlü, ağ çörəkli olasan", "Çörək atlı olsun, sən piyada", "Əppəyini od bişirməsin", "Yediyin çörək səni tutsun" kimi alqış və qarğışlar insanlar arasında geniş yayılıb.

Çörəyi müqəddəs sayan insanlar arasında zamanla onun ərsəyə gətirilməsi üçün vacib olan təndir, xəmirin yoğurulması ilə bağlı adətlər, inanclar formalaşıb. Qədimdə Naxçıvanda, demək olar ki, hər kəsin həyətində təndir damı, təndirəsər, təndirbaşı adı ilə ayrıca tikili mövcud olub. Bəzi dini mənbələrə görə isə Həvva nənənin daşdan təndiri olub. Bu təndir Nuh Peyğəmbərə miras qalıb. Müqəddəs "Qurani-Kərim"in "Hud" surəsinin 40-cı ayəsindəki "Təndir qaynadı" ifadəsində ilk dəfə Dünya tufanı ərəfəsində həmin təndirdən su qaynadığı barədə danışılır.

Xalq arasında xəmir də müqəddəs hesab edilib. O, ciddi şəkildə qorunar, evdən kimsəyə xəmrə verilməzdi. Birini qarğıyarkən isə belə deyərdilər: "Görüm sənin acı xəmrən kəsilsin". Yəni o dərəcədə kasıb olasan ki, xəmrə belə, götürə bilməyəsən.

Çörək bişirilməsində ən vacib vasitələrdən biri də undur. O, xalq arasında "urva", "urfa" adlanır. Urvadan borc, pay olaraq kimsəyə verilməz. O, evin, ailənin, ocağın bərəkəti sayılar.

Xalqımızın özünəməxsus çörəkbişirmə adəti var. Bu zaman qonum-qonşudakı qadınlar, habelə qohumlar bir yerə yığışarlar. Hazır olan (gələn) xəmir kündələnər, oxlov vasitəsilə açılar, rəfətə üzərinə yayıldıqdan sonra təndirə yapılar. Ərsəyə gələn isti çörəkdən mədətçilərə (köməkçilərə) də pay verilər. Bu həm savab, həm də çəkilən əziyyətin qarşılığı sayılır.

Oğul, qız toyu edən ailələr toydan qabaq "toy çörəyi" bişirmək üçün hazırlıq görərlər. Toy çörəyi yapılarkən qonşuları və qohumları "əppək üstə", "təndir başına" dəvət edərlər. Gələnlər pul, hədiyyələr gətirərlər. Kömək üçün gələnlər də, qonum-qonşu da, qonaqlar da təndir başında bir loxma toy çörəyi yeyərlər. Sonra toy üçün yapılan çörək dəstələnər və sərin bir yerə yığılar ki, toya hazır olsun. Ev sahibi "əppək üstə" gətirilmiş pul və hədiyyələrin müəyyən hissəsini çörəkyapanlara verər.

Toydan bir gün qabaq isə köməyə gələnlərin içərisindən ən təcrübəliləri seçilər və lavaşı sulamaq onlara tapşırılar. Çünki lavaşı isladanda diqqətli olmaq, suyu lazım olan qədər vurmaq lazımdır. Çörəyin toyda lazım olan qədəri istifadə edilər, qalanı isə xüsusi hazırlanmış çörək yeşiklərində quru şəkildə saxlanılar.

Çörək hər zaman həyatımız, yaşayışımız üçün ən vacib nemətlərdən olub. Odur ki, nəsillərin nəsillərə əmanəti kimi çörəyə ehtiram göstərmək, onu uca tutmaq bizim hər birimizin müqəddəs borcudur.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2018-ci ilin oktyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2747 | 203,0 | 203,0 | 100,0 |
| 2. | Şərur rayonu | 1862 | 131,6 | 131,6 | 100,0 |
| 3. | Babək rayonu | 1560 | 110,0 | 110,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 1050 | 73,9 | 73,9 | 100,0 |
| 5. | Culfa rayonu | 745 | 52,5 | 52,5 | 100,0 |
| 6. | Kəngərli rayonu | 536 | 37,8 | 37,8 | 100,0 |
| 7. | Şahbuz rayonu | 391 | 27,5 | 27,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 235 | 16,6 | 16,6 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 23671 | 2130,4 | 2130,0 | 100,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **32797** | **2783,3** | **2782,9** | **100,0** |

**Qeyd:** Oktyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 32 milyon 797 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 783 min 300 manat olmuş, cəmi 2 milyon 782 min 900 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi gənclərlə iş və idman sahəsində həyata keçirilən tədbirlərin əhatə dairəsini genişləndirmişdir.*

## Muxtar respublikada dövlət gənclər siyasəti diqqətdə saxlanılır

Oktyabr ayında Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar "Gənclər Paytaxtının ən yaxşı Tələbə-Gənclər Təşkilatı" adlı müsabiqə, "Naxçıvan Gənclər Paytaxtıdır" mövzusunda fotomüsabiqə, tələbələrlə görüş, gənclər arasında "Xəmsə" milli intellektual və "Poliqon" strateji intellekt oyunları keçirilmişdir. Bununla yanaşı, 18 oktyabr – Dövlət Müstəqilliyi Günü ilə əlaqədar gənclərin Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında əsgər və zabitlərlə görüşü, "Kitablar tozlanmasın" devizi altında "Kitab qoy, kitab götür" layihəsinin təbliğat kampaniyası təşkil olunmuşdur. Ay ərzində Naxçıvan gənclərinin VIII konfransı olmuş, o cümlədən yaradıcı gənclərin, sağlamlıq imkanları məhdud şəxslərin əl işlərindən ibarət müsabiqə keçirilmişdir.

Ötən dövrdə Naxçıvan Şahmat Mərkəzində Şahmat Federasiyasının kuboku uğrunda məktəblilər arasında muxtar respublika birinciliyi olmuşdur. Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında kamandan oxatma, sağlamlıq imkanları məhdud şəxslər arasında pauerliftinq üzrə muxtar respublika birincilikləri, məktəblilərin Naxçıvan Muxtar Respublika Spartakiadası, Naxçıvan Şahmat Mərkəzində internet üzərindən Naxçıvan komandası ilə Qırğızıstan Respublikası Talas şəhərinin komandası arasında şahmat idman növü üzrə beynəlxalq yoldaşlıq görüşü keçirilmiş, idmanın müxtəlif növləri üzrə şəhər və rayon birincilikləri təşkil olunmuşdur.

Oktyabr ayında muxtar respublika idmançıları ölkə birinciliklərində 15, beynəlxalq turnirlərdə 1, Yeniyetmələrin Yay Olimpiya Oyunlarında 1 olmaqla, 17 medal qazanmışlar.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Hüquqi maarifləndirmə günün tələbidir

*Sual: Hansı işçilərə əmək məzuniyyəti onlar üçün əlverişli olan vaxtda verilə bilər?*

**Cavab:** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 133-cü maddəsinin 3-cü hissəsinə əsasən 14 yaşınadək iki və daha çox uşağı olan və ya sağlamlıq imkanları məhdud uşağı olan qadınlara, 16 yaşınadək uşaqları təkbaşına böyüdən valideynə və ya qəyyuma, hərbi qulluqçunun arvadına (ərinə), əlillərə, müharibə veteranlarına, Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılması zamanı radioaktiv şüalanmaya məruz qalaraq sağlamlığı pozulmuş və ya şüalanma xəstəliyinə düçar olmuş şəxslərə, yaşı on səkkizdən aşağı olan işçilərə, işləməklə yanaşı, təhsil alan şəxslərə, Azərbaycan xalqı qarşısında xüsusi xidmətləri olan işçilərə əmək məzuniyyəti onlar üçün əlverişli olan vaxtda verilə bilər.

Həmçinin müəssisədə işlədiyi müddətdən asılı olmayaraq, işçinin arzusu ilə əmək məzuniyyəti arvadının hamiləliyə və doğuşa görə məzuniyyətdə olduğu dövrdə verilir.

**Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) mətbuat xidməti**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 815